

# ŞƏRQ qapısı

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 240 (23.882)

24 dekabr 2021-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 23-də Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviçi qəbul edib. Dövlətimizin başçısı bu yaxınlarda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviçlə görüşünü məmnunluqla xatırlayıb. Prezident İlham Əliyev Bosniya və Herseqovinanın Azərbaycanın ərazi bütövlüyünə və Vətən müharibəsi dövründə ölkəmizə verdiyi dəstəyi bir daha yüksək qiymətləndirib, bunu dostluq və tərəfdaşlıq əlaqələrinin mühüm göstəricisi kimi dəyərləndirib. Prezident İlham Əliyev öz növbəsində Azərbaycanın da Bosniya və Herseqovinanı dəstəklədiyini vurğulayıb. Dövlətimizin başçısı azad olunmuş ərazilərimizdə ermənilər tərəfindən 30 ilə yaxın davam edən işğal dövründə şəhərlərin, kəndlərin, tarixi və dini abidələrin darmadağın edildiyini bildirərək indi ölkəmizin həmin ərazilərdə həyata keçirdiyi geniş yenidənqurma və bərpa işlərindən danışıb.

Bosniya və Herseqovina Nazirlər Şurası sədrinin müavini və xarici işlər naziri Bisera Turkoviç ölkəmizin əldə etdiyi böyük nailiyyətlər münasibətilə dövlətimizin başçısına təbriklərini çatdırıb və inkişaf proseslərinin onda dərin təəssürat doğurduğunu qeyd edib.



## "Güclü dövlət, yüksək rifah" strategiyasının bəhrəsi

### Ordubad rayonunun Vələver kəndində yeni sosial obyektlər istifadəyə verilib

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ötən 18 ildə ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyası bütün sahələrdə müsbət nəticələrin əldə olunmasına şərait yaratmış, makroiqtisadi sabitliyə, dinamik iqtisadi artıma nail olunmuş, əhalinin sosial rifahının yüksəldilməsi istiqamətində ciddi uğurlar qazanılmışdır. Bu dövrdə muxtar respublika da hərtərəfli inkişaf etmiş, ümumi daxili məhsul 16 dəfə, sənaye məhsulu 56 dəfə, əsas kapitala yönəldilən vəsaitlərin həcmi 15 dəfə, əhali gəlirləri 10 dəfə artmışdır. Artıq başa çatmaqda olan 2021-ci il də muxtar respublikada quruculuq və sosial-iqtisadi inkişaf ili kimi səciyyələnir.

Dekabrın 23-də Ordubad rayonunun Vələver kəndində yeni sosial obyektlər istifadəyə verilmişdir.

## Vələver kənd məktəbi müasir tələblər səviyyəsindədir

Dekabrın 23-də Vələver kənd tam orta məktəbinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov məktəbdə yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, 3 mərtəbədən ibarət olan 198 şagird yerlik məktəbdə 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, 2 elektron lövhəli sinif, şahmat sinfi, kompüter, psixoloq və müəllimlər otaqları, hərbi kabinə, STEAM kabinəsi, kitabxana, qarderob və idman zalı yerləşir. Kitabxana fondunda 4557 kitab vardır.

STEAM kabinəsi STEAM qurğuları, həmçinin yeni nəşr olunan ədəbiyyat və dərsliklərlə təchiz edilmişdir. Şagirdlər hazırladıqları "3D printerdə hazırlanmış avtomobil park sistemi", "Sosial məsafəni təyin edən robot gözətçisi" və "Xətt izləyən robot" layihələrini təqdim etmişlər.

Müəllim Rəksanə Tarverdiyeva yaradılan şəraitə görə minnətdarlıq etmişdir.

Məktəbdə internetə çıxışı olan 22 kompüter və 4 elektron lövhə quraşdırılmışdır. Ali Məclisin Sədri elektron lövhəli sinifdə Naxçıvan Dövlət Xalça Muzeyi ilə 200-dən artıq təhsil müəssisəsi arasında "Naxçıvan xalçaları" mövzusunda keçilən interaktiv dərsi izləmişdir.



Məktəbin kimya, biologiya və fizika laboratoriyaları müasir avadanlıqlarla təmin olunmuşdur. Əyani vəsaitlər şagirdlərin bu fənlər üzrə biliklərini praktik olaraq daha da artırmalarına şərait yaradacaqdır.

Məktəbdə hərbi hazırlıq fənninin yüksək səviyyədə tədris olunması gənclərin hərbi-vətənpərvərlik ruhunda böyüməsində, onların hərb sənətinə olan maraqlarının artırılmasında başlıca amillərdəndir. İstifadəyə verilən hərbi kabinə, bu mənada, mühüm əhəmiyyət daşıyır. Hərbi kabinəyə baxış zamanı bildirilmişdir ki, son 3 ildə məktəbin 3 şagirdi Heydər Əliyev adına Hərbi Liseyə qəbul olmuşdur. Onlardan 1-i Azərbaycan Ali Hərbi Məktəbinin I kursunda təhsilini davam etdirir. Məktəbin hərbi müəllimi Ziyad Əhmədov ötən il Əlahiddə Ümumqoşun Ordunun keçirdiyi zabit hazırlığı kursunda iştirak etmiş və leytenant rütbəsi almışdır.

İdman zalının müasir şəkildə qurulması, həyatda açıq idman qurğularının qoyulması şagirdlərin fiziki hazırlığının yüksəldilməsində mühüm rol oynayacaqdır. Məktəbdə Voleybol və Tennis İdman klubları yaradılmışdır.

Bütün lazımi əyani vasitələrlə təchiz olunmuş şahmat sinfi şagirdlərin bu idman növünə olan marağını daha da artıracaq, onların əqli inkişafına xidmət edəcəkdir.





Müəllim Xəyalə Həsənova minnətdarlıq edərək demişdir: "Müasir tələblərə cavab verən məktəbdə fəaliyyət göstərməyimiz çoxdankı arzumuz idi. Artıq arzumuz reallığa çevrilib. Muxtar respublikada bütün sahələrdə olduğu kimi, şahmat idman növünə də diqqət və qayğı göstərilir. Məhz bu qayğının nəticəsidir ki, muxtar respublika şahmatçıları beynəlxalq yarışlarda iştirak edir, reytinqlərini yüksəldirlər. Bu gün məktəbdə şahmatın tədrisi üçün hər cür şərait yaradılıb. Çalışacağıq ki, yaradılan şəraitə cavab olaraq güclü şahmatçılar yetişdirək".

Sonra məktəbin pedaqoji kollektivi ilə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək demişdir ki, muxtar respublikada bu il 8 məktəb binası tikilərək və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib, hazırda 5 təhsil müəssisəsində binaların tikintisi və ya yenidən qurulması davam etdirilir. Muxtar respublikada müəllim əməyinə verilən qiymətin nəticəsidir ki, bu günə qədər 400-dən çox müəllim Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar müəllim"i fəxri adlarına layiq görülmüş, "Tərəqqi" medalı ilə təltif olunmuşdur. Müəllimlərin maddi rifah halının yüksəldilməsi də diqqətdə saxlanılır. Bu tədbirlərin davamı kimi 2022-ci il yanvarın 1-dən dövlət ümumi təhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının qiymətləndirilməsi aparılmış müəllimlərin, həmin müəssisələrin direktor və direktor müavinlərinin, dövlət peşə təhsili müəssisələrində idarəetmə və təlim fəaliyyəti ilə məşğul olan işçilərin aylıq vəzifə maaşları orta hesabla 20, gənclərin çağırışaqədərki hazırlıq rəhbərlərinin aylıq

Ardı 2-ci səhifədə





vəzifə maaşları orta hesabla 40 faiz artırılmışdır. Aparılan təhsil quruculuğu tədbirlərinin tərkib hissəsi kimi Vələver kənd tam orta məktəbində də müasir tədris şəraiti yaradılmışdır. Rəhman Məmmədov göstərilən hərtərəfli diqqət və qayğıya görə muxtar respublikanın təhsil işçiləri adından minnətdarlıq etmişdir.

Məktəbin gənc müəllimi Səma Heydərli minnətdarlıq edərək demişdir: “Vələver kənd tam orta məktəbi ən müasir tədris vəsaitləri ilə təmin olunmuşdur. Burada şagird və müəllimlər üçün yaradılan şərait heç də şəhər məktəblərindən geri qalmır. Bütün bunlar isə Ali Məclis Sədrinin muxtar respublikada həyata keçirdiyi əməli tədbirlərin məntiqi nəticəsi, muxtar respublika sakinlərinə göstərilən diqqət və qayğının bariz nümunəsidir. Müəllimlər də bu qayğını daim hiss edirlər. Öz fəaliyyəti ilə seçilən müəllimlər təltif edilir, əməkhaqları artırılır. Ali Məclis Sədrinin müvafiq Sərəncamı ilə 2022-ci ilin yanvarın 1-dən isə əlavə olaraq əməkhaqlarımız 20 faiz artırılıb. Bu isə müəllimləri ruhlandırır, daha yaxşı işləməyə sövq edir”. Səma Heydərli qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə təbriklərini çatdırmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vələver kənd tam orta məktəbinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir:



Bu gün təhsil sahəsində həyata keçirilən tədbirlər Azərbaycanı bu sahədə inkişaf etmiş ölkələr sırasına çıxarıb. Müdriklər deyirlər ki, əgər planınız 1 illikdirsə, buğda əkin, on illikdirsə, ağac əkin, 100 illikdirsə, məktəb tikin. Azərbaycan müstəqil dövlətdir. Müstəqil dövlətin gələcəyini təmin etmək üçün isə gənclər hərtərəfli hazırlanmalıdır. Gənclərin gələcəyə hazırlanması isə təhsil ocaqlarından başlayır. Bu gün Vələver kənd tam orta məktəbində yaradılan şərait imkan verir ki, ölkəmizin gələcəyi olan gənclər lazımi səviyyədə yetişdirilsin və məktəbi bitirən hər bir gənc bir peşəyə yönəndirilsin. Müasir tədrisin tələbləri səviyyəsində qurulan məktəbdə dərslər şagirdlərə əzbərləmə yolu ilə deyil, qavrama üsulu ilə öyrədiləcəkdir.

“Məktəb həm dövlətin, həm də cəmiyyətin işidir”, – deyən Ali Məclisin Sədri bildirmişdir ki, dövlət məktəbdə şərait yaradır, ancaq məktəbdəki nailiyyətlər, tədrisin səviyyəsi ailə və məktəbin üzərinə düşən vəzifədir. Ailələrlə sıx əlaqə qurulmalı, hər bir şagirdlə iş aparılmalı, onlar bacarığına və marağına uyğun ixtisaslara yönəldilməlidir. Son 5 ildə məktəbin nailiyyətləri muxtar respublikanın orta göstəricisinə yaxındır. Ancaq yaradılan bugünkü şərait təhsil ocağında kəmiyyətlə bərabər, keyfiyyət amilini də yüksəldəcək, nailiyyətlər artacaqdır. Nailiyyətlər onu deməyə əsas verir ki, məktəbdə işgüzar və peşəsinə hörmət edən kollektiv formalaşıb.

Ali Məclisin Sədri bütün bunlara görə kollektivə təşəkkürünü bildirmiş, tədrisdə uğurlar arzulamışdır.

Binanın həyətində bufet və qazanxana tikilmiş, açıq idman qurğuları quraşdırılmış, yaşıllıqlar salınmışdır.

Ali Məclisin Sədri qurulanların qorunması, nizam-intizama və tədrisdə keyfiyyət amilinə diqqət yetirilməsi barədə tapşırıqlar vermişdir.

## Vələver kəndində dövlət qurumları üçün müasir iş şəraiti yaradılıb






Dekabrın 23-də Vələver kənd mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yerləşən təşkilatların fəaliyyəti və yaradılan şəraitlə maraqlanmışdır.

Məlumat verilmişdir ki, 2 mərtəbəli kənd mərkəzində inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, rabitə evi, polis sahə və baytarlıq məntəqələri, kitabxana, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, arxiv, statistika otağı, klub, 38 yerlik zal və qazanxana yerləşir. Kitabxana fondunda 5315 kitab vardır. Rabitə evində 256 nömrə tutumlu yeni nəsil ATS quraşdırılmışdır. Hazırda burada 128 internet istifadəçisi qeydiyyatdadır.

Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatının 120 üzvü vardır ki, onlardan da 29-u gənc, 55-i isə qadındır. Ərazi ilk təşkilatının sədri Ramiz Heydərov partiya üzvləri adından yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir: “Ali Məclis Sədrinin rayonumuza hər gəlişi yeni obyektlərin istifadəyə verilməsi ilə yadda qalır. Bu gün kəndimiz ən müasir kəndlər sırasına daxil olur. Partiyaya qəbul olmaq üçün müraciət edən gənclərin sayı artmaqdadır. Biz də partiya üzvləri olaraq rayonun bütün tədbirlərində iştirak edirik. Bundan sonra da səylə çalışacaq, yaradılanları qoruyacaq, göstərilən etimadı doğruldacağıq”.



İnzibati ərazi dairəsi üzrə nümayəndə Mircəlal Seyidov demişdir: “Əhalinin əsas məşğuliyyəti əkinçilik, bağçılıq, meyvəçilik, heyvandarlıq və arıçılıqdır. Təsərrüfat sahibləri istehsal etdikləri məhsulları rayon mərkəzində və Naxçıvan şəhərində təşkil olunmuş yarmarkalarda rahat satışını təşkil edir, ailə büdcələrini artırırlar. Bunun da nəticəsidir ki, kənddə ailə təsərrüfatları gündən-günə artmaqdadır. Bu il kəndimizdə böyük quruculuq işləri aparılmışdır. Bununla kənd siması başdan-başa dəyişilmişdir”.

Kəndlərdə müasir səhiyyə müəssisələrinin tikilməsi mühüm əhəmiyyətə malikdir. Kənd mərkəzinin birinci mərtəbəsində yerləşən feldşer-mama məntəqəsində məntəqə müdiri, mama və manipulyasiya otaqları vardır. Məntəqə ginekoloji müayinə masası və alət dəsti, təcili yardım çantası, qlükometr, boyölçən, tərəzi, soyuducu və digər tibbi ləvazimatlarla təchiz edilmişdir.

Ordubad Rayon Mərkəzi Xəstəxanasının baş həkimi Elmar Zeynalov yaradılan şəraitə görə minnətdarlıq edərək demişdir ki, məntəqə əvvəl uyğunlaşdırılmış binada fəaliyyət göstərirdi. Bu gün isə səhiyyə işçiləri üçün müasir iş şəraiti yaradılmışdır. Bundan sonra da yaradılan şəraitə uyğun insanların sağlamlığının keşiyində duracağıq.

Ali Məclisin Sədri səhiyyə maarifinə üstünlük verilməsi, rayon mərkəzindən həkim briqadalarının göndərilməsi, sanitar-gigiyenik qaydalara əməl olunması barədə tapşırıqlar vermişdir.

## Müasir yol güclü iqtisadiyyatın və yüksək mədəniyyətin göstəricisidir

Vələver kəndində həyata keçirilən quruculuq işləri çərçivəsində kənd avtomobil yolu da yenidən qurulmuşdur.

Dekabrın 23-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov yolda yaradılan şəraitlə tanış olmuşdur.

Bildirilmişdir ki, ümumi uzunluğu 5,1 kilometr olan yola asfalt örtük salınmış, 29 su keçidi qoyulmuş, 640 metr beton su kanalı çəkilmiş, 1 körpü təmir edilmiş və 225 metr istinad divarı tikilmişdir.

Sonra sakinlərlə görüş olmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov demişdir: Bu gün 3 kəndi özündə birləşdirən Vələver kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin ərazisi tamamilə abadlaşdırılıb. Kənd müasir kəndlər sırasına daxil olub. Yollar yenidən qurulub, elektrik, qaz xətləri yenilənib, məktəb tikilib, feldşer-mama məntəqəsi və dövlət orqanları üçün müasir iş şəraiti yaradılıb. Bir sözlə, kəndin bütün ehtiyacları nəzərə alınıb. Ölkəmiz 30 ildir ki, müstəqil dövlətdir. Müstəqilliyimizin ilk illəri çətin dövrləri idi. Həmin illərdə ölkədə qarışıqlıq, vətəndaş müharibəsi hökm sürür, eyni zamanda torpaqlarımız işğala məruz qalırdı. Lakin ümummilli liderimizin siyasi hakimiyyətə qayıdışından sonra ölkədə sabitlik və inkişafın təməli qoyuldu. Ölkə Prezidentinin bu gün o yolu uğurla davam etdirməsinin nəticəsidir ki, Azərbaycan inkişaf etmiş ölkələr sırasında öz

*Ardı 3-cü səhifədə*





layiqli yerini tutub. Uzun illər işğal altında olan torpaqlarımız azad olunub. Bu gün ölkəmiz quruculuq meydanına çevrilib, işğaldan azad olunmuş ərazilərdə quruculuq işlərinə başlanılıb və insanların yaşayışının yaxşılaşdırılması üçün lazım olan işlər həyata keçirilir. Vələver kəndində görülən işlər də ölkəmizin inkişafının göstəricisidir. Həyata keçirilən tədbirlər insanların rahat yaşayışına, kəndin gələcək inkişafının təmin edilməsinə hesablanıb.

Ali Məclisin Sədri demişdir: Kənddə ailə təsərrüfatları inkişaf edib, meyvəçilik, maldarlıq, heyvandarlıq və arıçılıq formalaşıb. Bütün bunlar ölkəmizdəki sabitlik, inkişaf və dövlət-xalq birliyi nəticəsində mümkün olub. Qurulanlar işin bir tərəfidirsə, onların qorunması, uzun müddət istifadə edilməsi işin əsas tərəfidir. Sakinlər də gərək qurulanlardan səmərəli istifadə etsin. Sakinlər çalışmalıdır ki, Vələver, Başkənd və Qoruqlar kəndləri bundan sonra da inkişaf etsin, yeni evlər tikilsin, məskunlaşma və təsərrüfatlar artsın.

Ali Məclisin Sədri kompleks quruculuq işlərində iştirak edənlərə və zəhməti olanlara təşəkkür etmiş, sakinləri qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə təbrik etmişdir.

Vələver kənd sakinləri adından minnətdarlıq edən ziyalı Muxtar İsmayılov demişdir ki, muxtar respublika sürətlə inkişaf edir. Bu inkişafı görməmək mümkün deyil. Ulu öndər Heydər Əliyevin yolunun muxtar respublikada uğurla davam etdirilməsinin nəticəsidir ki, bu illər ərzində Naxçıvanın elə bir yeri yoxdur ki, orada quruculuq işləri aparılmasın. Ən ucqar kəndlərdə belə, abadlıq işləri görülüb, yollar çəkilib, sosial obyektlər qurulub. Bu gün Naxçıvan 100 faiz qazlaşdırılıb, bütün evlər işığa qərq olub, elektrik, rabitə xətləri çəkilib, sürətli internetdən geniş istifadə olunur. Təkcə son 3 ay ərzində Ordubad rayonunun 3 kəndində abadlıq-quruculuq işləri tamamlanmışdır. Əndəmic, Dırnısda və bu gün Vələver kəndində sosial obyektlər istifadəyə verilib. Bu gün Vələver kəndində elə bir küçə, döngə yoxdur ki, orada yollara asfalt salınmasın. Kənd şəhərə çevrilib. Əvvəlki məktəbdə qış ayları çətinliklə üzləşirdik. Lakin bu gün 3 mərtəbəli müasir məktəb ucaldılıb. Bu il bizim üçün uğurlu oldu. Gələn il də xalqımız üçün uğurlu, bərəkətli il olsun, dədə-baba yurdlarından qaçqın düşən ailələr öz yurdlarına qayıtsınlar. Muxtar İsmayılov qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramları münasibətilə təbriklərini çatdırmışdır.

## Yeni xidmət mərkəzində lazımi şərait yaradılıb






Həmin gün Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Vələver kəndində xidmət mərkəzinin də açılışını etmişdir.

Məlumat verilmişdir ki, xidmət mərkəzində bərbərxana, qadın gözəllik salonu, ət satışı yeri, ərzaq və təsərrüfat malları mağazaları və anbar yerləşir. Burada xidmətin təşkili üçün nümunəvi şərait yaradılmış, 5 nəfər işlə təmin olunmuşdur.

Ali Məclisin Sədri yerli istehsal məhsullarının satışına üstünlük verilməsi barədə tapşırıqlar vermişdir.

* * *

Vələver kəndində yeni sosial obyektlər tikilərkən bir sıra abadlıq işləri də görülmüşdür. Kənddə 890 metr fiber-optik, 540 metr yeraltı, 1050 metr hava kabel xətti çəkilmişdir. Həmçinin elektrik təsərrüfatı tamamilə yenilənmiş, 33 dayaq basdırılmış, 2200 metr məsafədə məftil naqillər izolyasiyalı kabellərlə, 500 metr məsafədə məftil naqillər yeraltı kabel xətləri ilə əvəz olunmuşdur. Bundan başqa, 230 poqonometr polietilen borularla yeni tikililərə qaz xətti çəkilmiş, 1632 poqonometr qaz xəttində dəmir borularla təmir-bərpa işləri aparılmışdır. Eyni zamanda kənddə mövcud kaptajın 60 metrlik hissəsi təmir edilmiş, 15 metr yeni kaptaj tikilmiş, suğtirici ana xəttin 150 metr hissəsində təmir-bərpa işləri görülmüşdür.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Ulu öndər Heydər Əliyevin siyasi xətti ölkəmizdə uğurla davam etdirilir



2003-cü ilin prezident seçkiləri ərəfəsində Azərbaycan xalqına ünvanladığı tarixi müraciətdə ***"…Mənim hələ tamamlanmamış çox perspektivli planlarım var"***, – deyən ulu öndərimiz Heydər Əliyev bu planları həyata keçirmək qüdrətində olan siyasi varisi haqqında demişdir: ***"İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, İlham Əliyev bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəkdir. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".***

2003-cü ilin prezident seçkilərində yekdilliklə ölkə başçısı seçilən cənab İlham Əliyev andiçmə mərasimində Azərbaycanın inkişafı üçün ölkədə ümummilli lider Heydər Əliyev yolunun davam etdirilməsinin vacibliyini bildirərək bəyan etmişdir ki: ***"Azərbaycan xalqı Heydər Əliyev siyasətinə səs veribdir. Sülhə, əmin-amanlığa, tərəqqiyə, inkişafa, quruculuğa, sabitliyə səs veribdir. Bu siyasətə Azərbaycanda alternativ yoxdur. Mən Azərbaycanın xoşbəxt gələcəyinə inanıram. Əminəm ki, ölkəmiz bundan sonra da inkişaf edəcək, daha da güclənəcəkdir. Ölkəmiz müasir dövlətə çevriləcəkdir. Ancaq bütün bunları həyata keçirmək və Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün ən başlıcası ölkədə Heydər Əliyev siyasəti davam etdirilməlidir. Mən Azərbaycan xalqına söz verirəm ki, bu siyasətə sadiq qalacağam, heç vaxt bu yoldan dönməyəcəyəm, Heydər Əliyev siyasətini davam etdirəcəyəm".***

Qüdrətli ordu, güclü iqtisadiyyat, beynəlxalq arenada önəmli mövqe, müstəqil xarici siyasət və qalib ölkə. Bu öz tarixinin ən güclü dövrünü yaşayan Azərbaycanın bugünkü reallıqlarıdır. 18 il əvvəl Azərbaycan xalqı müdrik seçim edərək ulu öndərimizin siyasi kursuna və dahi şəxsiyyətin layiqli davamçısı cənab İlham Əliyevə səs verdi. Ötən hər il xalqın öz seçimində yanılmadığını təsdiqləməkdədir. Yeni əsrin yeni lideri cənab İlham Əliyev 18 ildə Azərbaycanı həm siyasi-iqtisadi, həm də hərbi cəhətdən qüdrətli, dünyada söz sahibi olan qalib dövlətə çevirdi.

Prezident cənab İlham Əliyevin ***"Hər şey iqtisadiyyat üzərində qurulur. Azərbaycanın iqtisadiyyatı möhkəm olarsa, bütün məsələləri həll etmək imkanımız olacaqdır"*** fikirləri ümummilli lider Heydər Əliyevin ***"İqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir"*** tezisinin davamıdır. Azərbaycanın ötən dövrdə keçdiyi yola nəzər salsaq, görərik ki, ölkə iqtisadiyyatı davamlı və dinamik inkişaf yolu keçib. Çünki dövlət başçısının Azərbaycanda həyata keçirdiyi iqtisadi siyasətin kökündə real iş görmək prinsipi dayanır. Bütün ölkəni əhatə edən tikinti-quruculuq işlərinin aparılması, yollar və körpülərin salınması, yeni istehsal müəssisələrinin istifadəyə verilməsi, sənaye və kənd təsərrüfatı sahələrində yüz minlərlə iş yerinin açılması, məktəblərin, xəstəxanaların, idman komplekslərinin tikilməsi, elektrik, su və qaz təminatının, insanların rifahının yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi cənab İlham Əliyevin səmərəli fəaliyyətinin nəticəsidir.

Cənab İlham Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi səlahiyyətlərinin icrasına yenicə başladığı dövrdə jurnalistlərə verdiyi ilk müsahibəsində bildirmişdir: ***"Artıq Azərbaycanda ölkəmizi inkişaf etdirmək üçün gözəl zəmin yaranıbdır. On il ərzində Heydər Əliyevin siyasəti Azərbaycanda çox güclü bir təməl qoyubdur. Bu təməlin üzərində gözəl binanın inşa edilməsi asan görünə bilər. Amma, eyni zamanda həyat yerində durmur. Qarşımıza yeni tələblər, yeni vəzifələr çıxır".*** Bu gün islahatların gedişi prosesində yeni iqtisadi şəraitin reallıqları nəzərə alınır, iqtisadi siyasətin ayrı-ayrı istiqamətləri müasir dövrün tələblərinə uyğunlaşdırılır və daha da təkmilləşdirilir.

Azərbaycan Prezidentinin əsas qayəsi ölkəmizin heç bir güc mərkəzindən asılı olmayaraq, müstəqil siyasət aparması, hər bir sahədə xalqın mənafeyinin nəzərə alınmasıdır. Məhz bu cür müstəqil siyasi idarəçiliyə nail olunmasının nəticəsidir ki, Azərbaycan ötən dövrdə Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz, TANAP, TAP kimi nəhəng iqtisadi layihələrlə bir çox ölkələrin enerji təhlükəsizliyinin təmin olunmasına böyük töhfələr verir. Eyni zamanda

*Ardı 4-cü səhifədə*


*Naxçıvan Muxtar Respublika Xəstəxanası*

dövlət başçısının təşəbbüsü ilə Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin yaradılması istiqamətində böyük işlər görülüb, Bakı-Tbilisi-Qars dəmir yolu istifadəyə verilib.

Azərbaycan iqtisadiyyatı artıq tam mənası ilə şaxələndirilmiş iqtisadiyyatdır. Dünyanı bürüyən qlobal böhrana baxmayaraq, Azərbaycanın uğurlu inkişafı təmin edilmişdir. Son 17 ildə ölkəmizdə bütün sosial məsələlər öz həllini tapmış, valyuta ehtiyatlarımız daha da çoxalmışdır. Qeyd olunan dövr ərzində əməkhaqqı 9,1 dəfə, pensiyalar 12,7 dəfə artmışdır. Yoxsulluq səviyyəsinin 5,9 dəfə azalması və ümumi daxili məhsul istehsalının 3,2 dəfə, büdcə xərclərinin 21,4 dəfə artması, 2003-cü ilin 4-cü rübündən 2020-ci ilin sonuna 2 milyon 518 mindən artıq yeni iş yerinin yaradılması düşünülmüş strategiyanın uğurlu və məntiqi nəticəsidir.


*Naxçıvan Müəllimlər İnstitutu*

Təbii ki, ötən illər ərzində Azərbaycanın artan iqtisadi gücü digər sahələrin, xüsusilə ordu quruculuğu sahəsində köklü islahatların aparılmasına, hərbi kadrların hazırlanmasına, maddi-texniki bazanın yenidən qurulmasına, ordumuzun döyüş potensialının artırılmasına imkan vermişdir. Məqsədyönlü şəkildə aparılan ordu quruculuğu prosesi işğal altındakı torpaqlarımızın azad olunması ilə nəticələndi. 27 sentyabr 2020-ci il tarixdə Ermənistan növbəti dəfə Azərbaycana qarşı təxribat törətdi. Elə həmin gün Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu genişmiqyaslı əks-hücum əməliyyatına başladı. 44 gün davam edən müharibədə bütün Azərbaycan xalqı Ali Baş Komandanla həmrəylik, birlik, inam, etibar, yüksək vətənpərvərlik, əzmkarlıq nümayiş etdirərək bir nəfər kimi dövlət başçısının yanında olduğunu göstərdi. Ermənistan ordusu tamamilə darmadağın edildi və düşmən kapitulyasiyaya məcbur oldu. Bu tarixi qələbə görkəmli dövlət xadimi Heydər Əliyevin ordu quruculuğu sahəsində gördüyü işlərin Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində qazanıldı. Ölkəmizin əldə etdiyi möhtəşəm hərbi qələbə Azərbaycan Prezidenti cənab İlham Əliyevin son bir ildə işğaldan azad edilmiş ərazilərin ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə çatdırılması üçün bütün zəruri tədbirləri reallaşdırması ilə iqtisadi-siyasi sferada da öz təsdiqini tapır. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının dirçəldilməsi və inkişafı iqtisadi siyasətin əsas istiqamətlərindən biri elan edilib.



*Süni Mayalanma Mərkəzi*

Ümummilli lider Heydər Əliyevin zəngin dövlətçilik irsinin varisi və onun uğurlu davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin məqsədyönlü və milli maraqlara cavab verən xarici siyasəti nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və ciddi uğurlara imza atmışdır. Hazırda BMT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası, ATƏT və digər nüfuzlu beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq aparılır. 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına sədrlik etməsi ölkəmizin beynəlxalq miqyasda nüfuzunu və qüdrətini göstərir. Prezident cənab İlham Əliyevin təşəbbüsü ilə Türk Şurası və Qoşulmama Hərəkatının COVID-19 pandemiyasına qarşı mübarizəyə həsr olunan Zirvə görüşləri, eləcə də BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi, həmçinin ötən il Azərbaycanın Demokratiya və İqtisadi İnkişaf naminə Təşkilat – GUAM və Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrlik etməsi ölkəmizə və dövlətimizin başçısına beynəlxalq arenada olan böyük hörmətin göstəricisidir. Bu il noyabrın 12-də İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının VIII Zirvə Görüşündə cənab İlham Əliyevin "Türk Dünyasının Ali Ordeni" ilə təltif olunması da bunun bariz nümunəsidir.

Ölkə Prezidentinin qayğısı ilə Naxçıvan Muxtar Respublikası da sürətli inkişaf yoluna qədəm qoymuşdur. Dövlət başçısı kimi fəaliyyəti dövründə cənab İlham Əliyev dəfələrlə Naxçıvan Muxtar Respublikasına səfərlər etmiş, onun iştirakı ilə 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələrinin, istehsal sahəsi və hərbi təyinatlı obyektlərin açılışı olmuşdur. Bütün bunlar muxtar respublikamıza yeni inkişaf tempi gətirmişdir.

Təsadüfi deyil ki, Vətən müharibəsində qazandığı uğurları ilə Ata Vəsiyyətini layiqincə yerinə yetirən cənab İlham Əliyev tarixi Qələbədən sonra ulu öndərin doğum günündə Naxçıvana səfər etdi, muxtar respublikanın sürətli və hərtərəfli inkişafı ilə bağlı təəssüratlarını ictimaiyyətə çatdırdı: ***"Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax, bu inkişafda təcəssüm etdirir".***


*Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı*

Dövlət proqramlarının uğurlu icrası Naxçıvanda bütün sahələrin inkişafına geniş imkanlar açıb, 2003-cü ildən ötən dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 16 dəfə, sənaye məhsulunun həcmi 56 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 7,5 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 13 dəfə artıb. Muxtar respublikada 183 elm və təhsil ocağı, o cümlədən 38 min 970 şagird yerlik 130 ümumtəhsil məktəbi, 304 mədəniyyət obyekti, 217 səhiyyə obyekti, 23 idman obyekti, 327 inzibati bina, 37 nasos stansiyası, 197 subartezian quyusu, 78 körpü, 1089 istehsal və xidmət sahəsi tikilib, 155 elm və təhsil ocağı, o cümlədən 48 min 690 şagird yerlik 103 ümumtəhsil məktəbi, 178 mədəniyyət obyekti, 59 səhiyyə obyekti, 23 idman obyekti, 254 inzibati bina, 65 nasos stansiyası, 58 subartezian quyusu, 56 körpü, 2218 kilometr yol yenidən qurulub və ya əsaslı təmir edilib. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2020-ci ildə bu göstərici 9-a çatdırılıb.


*Əlahiddə Ümumqoşun Ordunun hərbi aerodromu*

Bütün sahələrdə əldə olunan nailiyyətlər əhalinin məşğulluğunu da təmin edib, 78 min 561 iş yeri açılıb.


*Culfa-Ordubad magistral avtomobil yolu*

Muxtar respublikada həyata keçirilən kompleks tədbirlər, sənaye və aqrar sahənin inkişafında müsbət nəticələrin əldə olunması, yeni istehsal müəssisələrinin fəaliyyətə başlaması, investisiya imkanlarının artması sürətli inkişaf tempinin qorunub-saxlanmasına, əhali rifahının yaxşılaşmasına və sosial problemlərin həllinə səbəb olub. Əldə olunan inkişaf göstəriciləri ölkəmizin iqtisadi regionları ilə müqayisədə Naxçıvan Muxtar Respublikasının ön mövqedə olmasını şərtləndirir. Bu, aparılan təhlillər, hazırlanan reytinq siyahılarında da öz əksini tapır. İlk Sədri Prezident cənab İlham Əliyev olan "Caspian European Club"un Azərbaycan üzrə iqtisadi islahatların və sosial siyasətin nəticələrini əks etdirən iqtisadi regionların illik investisiya reytinqində Naxçıvanın iki il ard-arda lider mövqedə olması bunu bir daha sübut edir.

Bu illər ərzində Naxçıvanın müdafiə potensialı, hərbi hissələrin döyüş hazırlığı daha da yüksəldilmişdir. Torpaqlarımızın işğaldan azad olunmasında Əlahiddə Ümumqoşun Ordunun uğurlarına toxunan Ali Baş Komandan demişdir: ***"İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri – həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər".***

Ötən illər onu göstərdi ki, ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycan xalqının bütün istək və arzularını həyata keçirən, öz siyasətində Azərbaycan dövlətinin və xalqının maraqlarını ən ali məqsəd kimi görən və bütün qüvvəsini bu istiqamətdə səfərbər edən, xalqın birmənalı şəkildə dəstəklədiyi, etimad göstərdiyi və etibar etdiyi qurucu LİDERDİR. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, əldə olunan uğurların təməlində ulu öndər Heydər Əliyev siyasəti dayanır. Cənab İlham Əliyev isə möhkəm təməl üzərində qurulmuş bu siyasi kursu dövrün yeni çaları ilə zənginləşdirərək uğurla və layiqincə davam etdirir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Zaman keçdikcə bu uğurlar artır və artacaqdır. Çünki ümummilli liderimizin yolunu layiqli davamçısı, müstəqil Azərbaycanın qüdrətli rəhbəri möhtərəm İlham Əliyev davam etdirir. Bu gün xalqımız əmindir ki, ümummilli liderimizin siyasi kursu möhkəm əllərdədir. Bu kursu davam etdirən cənab Prezident Azərbaycanı, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasını da yaşadır və inkişaf etdirir, ölkəmizi və xalqımızı inamla daha firavan gələcəyə aparır!"***

**"Şərq qapısı"**

ŞƏRQ qapısı
Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 1074